**Holiyor Safarov (Xolyor Safarov). 1983-cü ilin 21 fevralında Qashqadaryo vilayətinin Çiroqchi rayonu, Ayrıtom kəndində anadan olmuşdur. 2005-ci ildə Samarqand Dövlət Universitetinin Özbək filologiyası fakültəsini bitirmişdir. 2003-2008-ci illərdə “Erudit” qəzetində redaktor, 2008-2019-cu illərdə “Bekajon” qəzetində müxtəlif vəzifələrdə fəaliyyət göstərmişdir.**

**Əsərləri Özbəkistanın nüfuzlu ədəbi nəşrlərində, həmçinin Türkiyə, Azərbaycan, Rusiya, Ukrayna və Qırğızıstanda dərc edilmişdir. “Ay batmayan gecələr” (2010), “Qanadsız quşlar” (2015), “Namus və həyat” (2019), “Anamın yalanları” (2024) adlı kitabları çap olunmuşdur. Hal-hazırda “Özbəkistan Tarixi” televiziya kanalının “Sənədli filmlər” redaksiyasının baş redaktorudur. Özbəkistan Yazıçılar Birliyinin üzvüdür.**

# ƏTİRGÜL



## Hekayə

**(Qardaş xalqlar ədəbiyyatı - özbək ədəbiyyatı)**

* * *

*(Əvvəli ötən sayımızda)*

Malik kişi dərindən ah çəkərək qapıya sarı yönəldi, amma qəlbinin bir parçası otaqda qaldı. Çölə çıxıb, dayaqsız skamyaya əyləşdi və elə bil ki, az sonra o kök, yumru sifətli həkim pəncərədən boylanıb “A kişi, adınız nə idi? Gəlin ayılıb!” deyəcəkmiş kimi, ağ pərdələr arxasından görünən pəncərəyə baxışlarını zillədi. Təxminən yarım saat bu halətdə oturdu, sonra saatına baxdı - günorta yaxınlaşırdı. İşə də getməli idi, amma üç gündür bihuş yatan uşaqlarının anasını necə qoyub getsin? Məcbur, sanki boynuna boyunduruq salınmış kimi, işə tərəf yollandı.

Rəhbər sanki onu gözləyirmiş kimi, otağına çağırdı və sərt şəkildə danlamağa başladı.

- Əgər işiniz çoxdursa, gedin görün o işlərinizi. Bura karvansaraymı, istədiyiniz vaxt gəlir, istədiyiniz vaxt çıxırsınız? Saat neçədir?

O isə cavab vermək əvəzinə udqundu.

- Əgər işləmək xoşunuza gəlmirsə, buyurun, bir vərəq kağız, bir də qələm hər yerdə tapılar.

- Bağışlayın, - başını aşağı saldı. - Gəlininiz xəstəxanadadır.

- Mən sizə bir də deyirəm, evdəki qarışıqlığı işə qatmayın!

- Əslində çıxmaq istəyirdim, fürsət olmadı. İcazə verin, bir-iki gün işdən qalam. Hazırda reanimasiyadadır. Evə aparmaq istəyirəm...

- Nə?! - rəhbərin rəngi dəyişdi, sanki indiyə qədər nə dediyini eşitməmişdi.

- Bunu vaxtında gəlib deyə bilməzdiniz? Nə olub axı?

- Beyin əməliyyatı keçirdi, - deyə Malik kişi əzilib danışdı.

- Uf... - rəhbər dərindən nəfəs aldı. - Yaxşı iş olmayıb. İndi vəziyyəti necədir?

- Yaxşıdır... - dedi Malik kişi titrəyərək, - amma artıq üç gündür ki, ayılmayıb.

- Narahat olmayın, hər şey yaxşı olacaq.

- Dediyiniz çıxan olsun... - deyə Malik kişi elə cavab verdi ki, sanki rəhbərin bu sözləri ilə həyat yoldaşı sağalacaq.

- Yaxşı, gedin. Gəlini evə aparın, uşaqların yanına qoyun. Sonra işə gələrsiniz.

- Təşəkkür edirəm.

- Ay-hay, - rəhbər arxadan səsləndi, - mühasibatlığa da baş çəkin, indi zəng vuraram, maaşınızı əvvəlcədən alsınlar.

- Təşəkkür edirəm, çox sağ olun... - deyə Malik kişi rahatladı. Sonra rəhbərə minnətdarlıqla bir nəzər salıb, çıxıb getdi və maaşını alaraq xəstəxanaya tərəf yollandı.

Qapıda yenə həmin həkimlə qarşılaşdı. Onun “İçəri keçməyin, vəziyyəti yaxşıdır, amma hələ də ayılmayıb” deməsi Malik kişinin ümidini bir az da azaltdı. İçəridən, pəncərələrdən nicat gözləyənlərin arasına o da qarışdı. Bütün vücudu qulağa dönmüşdü, birinci mərtəbədəki pəncərəyə baxırdı. Həkimlərin dalınca qaçdığı, icazəsiz içəri keçə bilməyib, qapının ağzında növbətçi tibb bacısına yalvaran xəstə yaxınlarına, pəncərələrdən ümidlə həyata baxan dərdli insanlara göz gəzdirdi. Ürəyindən bir şey qopdu, içində nə isə qırıldı. Elə bu anda yan-yörəsində Yaradandan möcüzə gözləyənlərin arasından sıyrılıb, sədəqə istəyən çirkli paltarlı qaraçı uşaq ona yaxınlaşdı.

- Al, götür! - deyə Malik kişi onun əlinə pul basdı. Uşaq pulu alıb, bəri başdan üz-gözünə dua çəkirmiş kimi etdi, sonra qarşıda oturmuş, beli bükülmüş bir nənənin qarşısına keçdi və əmək görməmiş əllərini ona tərəf uzatdı.

Bu vaxt pəncərədən bir həkim göründü. Malik kişi “Mənəmmi?” deyə ayağa qalxmaq istədi, amma başqa bir soyad səsləndirildi.

- Uf-f... - deyə oturdu. - Məgər bu gün də ayılmayacaq?

Malik kişi xeyli vaxt səbrsiz oturdu. Günorta oldu. Nahara görə xəstəxananın yaxınındakı yeməkxanaya keçdi. İştahtı yox idi, iki ədəd samsa və iki piyala çay içdi. Sonra geri qayıtdı.

İkindi vaxtı arvadının yanına baş çəkdi. Yenə eyni vəziyyət: Farida hələ də bihuş yatırdı. Tibb bacıları vaxtaşırı içəri girir, vəziyyəti yoxlayır, bəlkə könül almaq üçün, bəlkə də doğrudan, xəstənin durumunun yaxşı olduğunu deyib çıxırdılar. O, həyat yoldaşının yanında yarım saat oturdu, lakin bir anda yadına düşdü ki, balacalarını bağçadan götürməlidir - sanki biri onu qulağından tutub çəkdi, və çarəsiz şəkildə oradan çıxdı...

Axşam uşaqları yalanlayıb, bir az başlarını oxşayıb yatızdırdıqdan sonra özü gecə yarısına qədər yata bilmədi. Elə bil göz qapaqlarına kibrit çöpü sıxışdırılmışdı - fikrə dalmış halda tavanın bir nöqtəsinə baxaraq gözlərini yummadan uzandı. Gözlərinin önünə yenə də palatada cansız və hissiz uzanan Faridanın solğun sifəti gəldi və tavanın küncündə hilal kimi canlandı sanki.

”Gəldinmi? - dedi, gözlərini tavandan ayırmadan. - Çox yaxşı eləmisən. Onsuz da səni gözləyirdim. Bax, sənin yerində kim yatır. Odilcan. Yatmamışdan qabaq səni soruşub çox kükrədi. Söz verdim, sabah gətirəcəm. Qızlar da səni çox darıxıblar. Onları gətirmək istədim, amma həkimlər icazə vermədi. Ən yaxşısı, sən özün gəl. Farida, sabah yenə gələcəm. Bir dəstə qırmızı qızılgül də alacam. Axı sən gül iyini çox sevirsən. Xatırlayırsan, böyük qızımıza hamilə olduğun vaxtda məni bir rahat buraxmamışdın, qızılgül gətirmişdim axı. O gülləri divanə kimi üzünə basıb qoxulamağın, gözlərini yumub dərin nəfəs almağın, ”Ah, bu nə gözəl iy idi belə!” - deyə-deyə gülümsədiyin günü necə də gülmüşdüm. “Sən demə, belə də olurmuş” - demişdim. Amma o qızılgül ətri o gün bizə və ailəmizə sevinci, xoşbəxtliyi gətirmişdi. Sabah da gətirəcəm. Ən gözəlindən, ən ətirlisindən...”

- Ayyaah! - Odilcanın ağlayaraq oyanması atanın düşüncələrini dağıtdı. Çevrilib oğlunu yanına aldı, yavaşca çiyninə vuraraq yatızdırdı. Sonra özü də yorğun gözlərini yumdu.

Səhəri Malik kişi hər zamankından daha erkən oyandı. Pəncərəni açıb çölə baxdı - hələ zülmət idi. Gedib əl-üzünü yudu, sonra dəsmal ilə qurulana-qurulana yenidən pəncərə kənarına oturdu və qaranlığın qoynuna baxaraq günəşin çıxmasına, aləmin aydınlaşmasına ümidləndi.

”- Farida?” - dedi o qaranlığa baxaraq, sanki arvadıyla danışırmış kimi. - ”Bu vaxta qədər sənə çox diqqətsiz olmuşam, deyəsən... Bağışla məni! Uşaqların xatirinə, məni bağışla... İnsan bu qədər biganə olarmı? Ay Allah! Əgər ayılmasan nə olacaq, təsəvvür elə... Doğrusu, qorxuram... Məni demirsənsə də, Allaha and olsun, uşaqları düşün...”

Malik kişinin gözləri doldu. Yanaqlarından süzülən yaşları çiynindəki dəsmalla sildi, sonra dərin nəfəs aldı. Uşaqlar oyandıqda göz yaşlarını görməsinlər deyə yenidən hamama getdi. Üzünü yuyub güzgüyə baxdı:

- Ey Uca Yaradan, Səndən qüdrətlisi yoxdur. Mərhəmətini bizdən əsirgəmə...

Nəhayət, dan yeri söküldü.

Malik kişi qızlarını məktəbə, oğlunu bağçaya yola saldıqdan sonra düz güllər dükanına getdi. Bir dəstə al qırmızı qızılgül aldı və xəstəxanaya yollandı. Bu dəfə reanimasiya şöbəsinin qapısında onu dünənki kök, yumru üzlü həkim yox, daha qısa boylu, öyrənmək və təcrübə toplamaqdan saçsaqalı seyrəlmiş, başında günəş parıltısı dolaşan bir həkim qarşıladı. O, dünənki təşviş və narahatlığı bir az yumşaldaraq dedi:

- Hələ ayılmayıb. Gözləyirik.

- Axı bu gün dördüncü gündür? - dedi Malik kişi, həkimin yuxusuzluqdan qızarmış gözlərinə ümidsizcə baxaraq.

- Narahat olmayın, qardaş. Vəziyyəti yaxşıdır. Bax, mən deyirəm, mütləq ayılacaq.

- Dediyiniz çıxsa, Allah sizdən razı olsun, - ümidləndi. Sonra xahiş etdi:

- Xahiş edirəm, bircə dəqiqəlik baxım ona.

- Yaxşı, amma tez çıxın.

Malik kişi palataya daxil olub, dünənki kimi hələ də huşsuz və hissiz uzanan Faridanın üzündən öpdü, salam verdi. Sonra gül dəstəsini onun yanına qoydu:

- Qızılgül ətri burnuna dəysin...

Kresloda əyləşdi və arvadının əlindən tutaraq möcüzə gözləyirmiş kimi susdu.

- Mən gəldim... - dedi nəhayət. Sonra onun yumulu gözlərinə, solğun üzünə baxdı. Baxışları bir nöqtəyə mıxlanmış kimi dondu. Gözləri sulandı, kirpikləri bir-birinə yapışdı.

Nə qədər belə dayandığını bilmədi. Bir anlıq əllərinin arasında bir titrəmə hiss etdi və dərhal arvadının gözlərinə zilləndi. Heç bir əlamət yox idi. Ümidsizcə başını aşağı saldı. Sonra yenidən əllərinin arasındakı əldən bir titrəmə keçdi. O, ümidlə həmin əllərə baxdı. Bir azdan barmaqlar tək-tək tərpənməyə başladı.

- Şükür Allaha! - deyə çiynindən dağ götürülmüş kimi dərindən nəfəs aldı Malik kişi. Sonra arvadının üzünə baxdı. Əvvəlcə kipriklərə can gəldi. Sonra solğun göz qapaqları titrədi və o gözlərini açdı!

- Farida! Canım! - deyə sevinclə bütün otağı başına götürmək istədi.

Qurumuş dodaqlar tərpəndi. Bədən canlandı. Xəstə gözlərini açıb əvvəl tavana, sonra da ”haradayam mən?” deyirmiş kimi ətrafına baxdı.

- Farida?!

Qadının baxışları ətrafa dolaşarkən gözləri tumbada duran qızılgüllərə sataşdı və zəifcə gülümsədi. Lakin bədənində ağrı hiss edən kimi yenidən gözlərini yumdu.

- Canım?! - deyə Malik kişi yerindən dikəldi. - Nə oldu?

Bir az keçmiş, qadın yenidən gözlərini açdı və baxışları əriylə toqquşan anda sanki uşaqları bu vəziyyətə saldığına görə utanaraq üzünü gizlətdi, yenidən gözlərini yumdu. İki damla yaş yanağından yuvarlanaraq boynuna süzüldü. Malik kişi dəsmalını çıxarıb arvadının üzünü sildi.

- Canım, yaxşısan?

Xəstə ”hə, yaxşıyam” demək istəyirmiş kimi sağlı başını bir az tərpətdi. Onun ilk sözü bu oldu:

- Uşaqlar haradadır?

- Onlar yaxşıdır. Sənin sağalıb evə dönməyini gözləyirlər...

Farida bu qədər sözü tam dərk edə bilmədi, görünür, heç nə eşitmir kimi ərinə baxdı. Sonra qızılgüllərə tərəf gücsüz əllərini uzatdı. Ətrin burnuna çatdığı anda əvvəlki kimi onları üzünə basıb qoxuladı, dərin-dərin nəfəs aldı. Bu halı izləyən əriyə bir baxış atdı və utanmış kimi gülümsədi.

- Qoxula, qoxula! - dedi Malik kişi arvadının bu hərəkətindən xoşhal olaraq. - Sənə bu yaraşır. Mənə isə sevinc gətirir. Qoxula istədiyin qədər... Ta ki, bu sevinci də o əvvəlki kimi birlikdə xatırlayıb, birlikdə gülək...

**Xolyor Safarov**